**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**Q Ə R A R**
**№ 26/09**

**Bakı şəhəri** **08 avqust 2024-cü il**

**Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 106 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 7 may tarixli 240s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 26/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Prokurorun işi haqqında" 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in 6.5.1-ci yarımbəndinin ikinci cümləsinə "əsasən," sözündən sonra "Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş hallarda şəxsin valideynlik hüquqlarından məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması üçün," sözləri əlavə edilsin.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü il 11 yanvar tarixli 1/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Birinci instansiya məhkəmələrində mülki işlərə baxılması haqqında" 2 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının "İşlərin baxılmasında iştirak etmişdir" sütununa "Prokuror" məzmununda 29-1-ci altsütun əlavə edilsin.
3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
4. Aparatın Sosial statistika şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.
5. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**